# «Şəhidliyə aparan sevgi»

## *Aprel döyüşlərində şəhid olmuş Mikayıl Vahabzadəyə həsr olunmuş kitabın təqdimatı keçirilib*

Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan aprel döyüşləri ismayıllıların da hafizəsində dərin izlər buraxıb. Rayonun qədim yaşayış məskənlərindən olan Maçaxı kəndinin sakinlərinin hafizəsində də həmçinin. Bu da təsadüfi deyil. Maçaxını öz hünəri ilə şərəfləndirənlərdən biri həmin döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Mikayıl Yaqub oğlu Vahabzadədir.







Rayondakı mədəniyyət mərkəzində jurnalist Lətifə Əliyevanın şəhidin həyat və döyüş yoluna həsr etdiyi "Şəhidliyə aparan sevgi" adlı kitabının təqdimat mərasimi keçirilib. Mərasimdən bir gün əvvəl gənclərin, hərbçilərin, müəllimlərin və Qarabağ müharibəsi əlillərinin iştirakı ilə şəhidin məzarı ziyarət olundu.

Təqdimat mərasimində rayon icra hakimiyyəti rəhbərliyi, şəhidin valideynləri, Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və tələbə yoldaşları iştirak ediblər. Əvvəlcə şəhidin təhsil illərinə və hərbi xidmətinə həsr olunmuş sərgiyə baxılıb, haqqında qısametrajlı film nümayiş etdirilib. Torpaqlarımız uğrunda şəhid olan soydaşlarımızın ruhu bir dəqiqəlik sükutla yad edildikdən sonra rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov çıxış edib. O qeyd edib ki, aprel döyüşləri xalqımızın tarixi qələbəsidir. Bu uğur böyük qələbəyə aparan yolun başlanğıcıdır. Oğullarımızın şəhidliyi nə qədər ağırdırsa, aprel döyüşlərinin nəticələri bir o qədər qürurvericidir. Mikayıl Vahabzadə də həmin döyüşlərdə öz hünəri ilə vətənə sevgisini sübuta yetirib.

Milli Məclisin deputatı Novruzəli Aslanov şəhidə həsr olunmuş kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkür edib. Bildirib ki, bu da Vətən uğrunda ölməzliyə qovuşanların xatirəsini əbədiləşdirməyin bir yoludur.

Kitabın redaktoru Şahməmməd Soltanov, Hərbi Xidmətə Çağırış və Səfərbərlik Xidməti rayon şöbəsinin rəisi Xamis Bədəlov, əmək veteranı Valeh Salehov, Tircan kənd tam orta məktəbində Mikayıl Vahabzadəyə tarix dərsi demiş Gülyanaq Əliyeva və əməkdar jurnalist İldırım Dəmirli kitabın şəhidin ruhuna dərin hörmət və ehtiramın təzahürü olduğunu bildiriblər. Şəhidin bibisi Afət Vahabova kitabın ərsəyə gətirilməsində xidməti keçən hər kəsə səmimi təşəkkür edib.

Tədbirdə vətənpərvərlik mövzusunda şeirlər, şəhidlərə həsr olunmuş mahnılar da səslənib.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***